HIKMƏT ƏHMƏDOV
*t. e .n ., b.e.i.*
*Bakı Dövlət Universiteti Tarix fakültəsinin*
*"Azərbaycanşünaslıq "Elmi-Tədqiqat Mərkəzi*

# XIX ƏSRIN SONU - XX ƏSRIN ƏVVƏLLƏRINDƏ ŞIMALI AZƏRBAYCANDA RUS KOLONLAŞMASI MƏSƏLƏSINƏ DAIR

Aparılan tədqiqat obyekti XX əsr tədqiqatçıları və Vətən tarixşünaslığının nümayəndələri tərəfindən zaman-zaman öyrənilmişdir. Bu problemin ayrı-ayrı sahələrini öyrənən tədqiqatçılar araşdırma obyekti ilə bağlı bir sıra məsələləri izləmişlər( 1).

XIX əsrin sonu XX əsrin əvvəllərində Rusiya imperiyası Mərkəzi Qafqazda, o cümlədən Şimali Azərbaycanda öz siyasi hakimiyyətini möhkəmləndirmək məqsədilə planlı şəkildə müstəmləkəçilik siyasəti aparır. Göstərmək lazımdır ki, Rusiya imperiyasının müstəmləkə siyasəti tədqiq olunan dövrdə Şimali Azərbaycanda üç mərhələdə aparılmışdı.

Birinci mərhələ XIX əsrin 30 -50-ci illərini, ikinci mərhələ təxminən XIX –cu əsrin 60-90-cı illərini, üçüncü mərhələ isə XIX əsrin sonu XX əsrin əvvəllərini əhatə edir.

Azərbaycan torpaqlarında ilk rus kəndləri XIX əsrin 30 -cu illərinin əvvəlində Şamaxı, Cəbrayıl qəzalarında salınmışdı. Sonrakı illərdə bu proses davam etmiş və rus məskənlərinin sayı artmışdı. 1899-cu, 1905-ci illərdə Bakı və Yelizavetpol quberniyalarında 89 yeni rus kəndi meydana gəlmişdi. 1907-ci ilin əvvəlində Qafqazda vahid köçürmə idarəsi təşkil edilmişdi. 1908-ci ildən sonra Azərbaycana köçürülənlərin sayı sürətlə artmışdı. 1908-1912 -ci illərdə Qafqaza köçürülən 8.326 rus ailəsinin 4 mindən çoxu Şimali Azərbaycanda yerləşdirilmişdi. 1841-ci ildə Rusiyanın Tambov, Saratov, Yenisey qəzalarından 2 nəfər rus yuxarıda qeyd etdiyimiz əyalətlərə köçürülmüşdü. Təkcə 1850-ci ildə Şimali Azərbaycana 50 ailə köçürülmüşdü (2).

XIX əsrin ortalarında Şimali Azərbaycana köçürülən pravoslav dininə etiqad edən əhalinin sayı 1864-cü ildə yəni əhalinin köçürülməsinin 2-ci mərhələsinin başlanğıcında 7802 nəfərə, 1893-cü ildə isə 41.672 nəfərə çatmışdı (3).

Rusiyada təhkimçilik hüququ ləğv edildikdən sonra, mərkəzi quberniyalarda baş verən iğtişaşları "sakitləşdirmək" niyyətii ilə hakim dairələr müstəmləkə siyasətini sürətlə aparmağa başlasalar da, əsas məqsəd ölkənin avtoxton əhalisinin müstəmləkə üsulidarəsinə qarşı müqavimətini zəiflətmək və öz hakimiyyətinin etno -konfessional bazasını genişləndirməkdən ibarət idi. 1897- ci ildə Rusiyanın Mərkəzi quberniyalarından köçürülən rus əhalisinin sayı Şimali Azərbaycanda 199.236 nəfərə çatmışdır ki, bunlar Bakı, Yelizavetapol, İrəvan quberniyalarında yerləşmişdilər (4).

XIX əsrin 90-cı illərinin ikinci yarısında, Rusiyanın Mərkəzi quberniyalarında torpaqların azlığı nəticəsində xristian kəndliləri arasında sosial ziddiyyətlərin güclənməsi meyli artırdı və çıxış yolu kimi hakimiyyət mərkəzi quberniyalardan işğal olunmuş ərazilərə, o cümlədən Şimali Azərbaycana, rus kəndlilərinin köçürülməsində görürdü. Bu məqsədlə 1894-cü ildə Quba qəzasına təkcə Xarkov quberniyasından 450 nəfər və ya 93 ailə köçürülmüşdü.

Rus kəndlilərinin Şimali Azərbaycana köçürülməsini əhatə edən III mərhələ dövründə yəni XIX əsrin sonu - XX əsrin əvvəllərində Rusiya dövlətinin toxuculuq sənayesinin xam pambığa olan ehtiyacı daha da artmışdı. Ona görə də Rusiya dövləti Mil, Muğan, Şirvan zonalarında pambıqçılığı inkişaf etdirmək üçün yollar axtarırdı.

Çar hökuməti toxuculuq sənayesinin pambığa olan ehtiyacını təmin etmək məqsədilə Hindistan və Misirdən baha başa gələn pambıq idxal edirdi. XIX əsrin sonlarında yüngül sənayenin inkişafı ilə bağlı olaraq pambıq idxalına ehtiyac daha da artmışdı. Pambıq idxalında xarici dövlətlərdən asılılıq yolundan qurtulmasını çar hökuməti bol pambıq yetişdirmək imkanına malik olan Mil, Muğan, Şirvan torpaqlarının kolonlaşmasında, rus pravoslav kəndlilərinin bölgədə məskunlaşdırılmasında görürdü. Qafqaz canişini İ.İ.Vorontsov - Daşkov bu sahədə hazırlıq planını da tərtib etmişdi. Bu planda rus əhalisinin Şimali Azərbaycanın həmin ərazilərinə köçürülməsini əsaslandırmışdı. Bu plana görə həmin ərazilərdə yolların çəkilməsi, torpaqları suvarmaq üçün hidrotexniki qurğular tikilməsi, bataqlıq yerləri qurudulması birinci dərəcəli vəzifə hesab edilmişdi. Mil düzündə 40 min rus əhalisinin yerləşdirilməsi və bu ərazinin suvarılması üçün 15 min manat pul ayrılmışdı. Qeyd etmək lazımdır ki tədqiq olunan dövrdə Rusiya imperiyasının işğal etdiyi dövrdən çox əvvəl Mil düzünün əkin sahələrini suvarmaq üçün kanallar mövcud olmuşdur.

Aparılan arxeoloji qazıntılar nəticəsində aydın olmuşdur ki, hələ qədim zamanlardan dövrümüzə qədər qalıqları qalmış 3 kanal – uzunluğu 66 km olan Gour- Arx, uzunluğu 76 km olan Hacı Hüseyn kanalı və uzunluğu 60 km olan Toşkay – Arx kanalları mövcud olmuşdur və bu fakt onu deməyə əsas verir ki, Mil düzündə hələ qədimdən bu kanallar məhsuldar qüvvələrin inkişafına yol açır, əkinçiliyi canlandırırdı. Bu tapıntılar nəticəsində aydın olur ki, hələ qədim zamanlarda Azərbaycanın suvarma sistemləri əsasında əkinçiliyin inkişafı Qədim Misirin, Hindistanın və Çinin suvarma sistemlərindən heç də geri qalmamışdır. Azərbaycanın Mil, Qarabağ, Muğan, Şirvan düzləri hələ uzaq keçmişdə çox məhsuldar torpaqlara malik olduğundan həmişə işğalçı dövlətlərin nəzər diqqətini cəlb etmişdi. Ona görə də Azərbaycana müdaxilə edən təcavüzkarlar xalqın əməyi ilə yaradılan əkinçilik mədəniyyətini dağıdır, və nəticədə ölkənin iqtisadi həyatı uzun müddət tənəzzülə uğradırdı. Sonrakı dövrlərdə də, xüsusən xanlıqlar dövründə bu ərazilərdə Azərbaycan xanlıqları arasında gedən çəkişmələr ölkənin təsərrüfat həyatına xarici basqınlardan az zərər vurmamış, pərakəndə düşmüş Azərbaycan torpaqlarını xarici basqınların pəncəsindən yalnız mərkəzləşmiş qüvvə xilas edə bilərdi. Lakin XVIII əsrin sonlarında Quba xanı Fətəli xanın ölkənin şimal şərq bölgəsini öz hakimiyyəti altında birləşdirmək istəyi, Iran şahı Ağaməhəmməd Şah Qacarın Rusiyanın Mərkəzi Qafqazda möhkəmlənməsinin qarşısını almaq məqsədilə bölgəyə yürüşləri nəticəsiz qalmışdır.

Azərbaycanın Rusiya tərkibinə qatılması ilə suvarma sahəsində əmələ gələn cüzi dəyişiklik bundan ibarət olmuşdur ki, feodal müharibələrinin arası kəsildiyindən, ara müharibələrinin nəticəsində dağıntılar baş verə bilmirdi.

Azərbaycan Rusiya himayəsinə keçəndən sonra suvarma sistemləri ilk vaxtlar məhz baxımsızlıq nəticəsində baş verirdi. Çarizm bu xırda su qurğularına az xərc çəkmək, çox bəhrə götürmək məqsədi güddüyündən bu sistemlər dağılırdı. Əvvəllərdə olduğu kimi yenə də suvarma sistemləri çarizmin yoxsul Azərbaycan əhalisini istismar etmək üçün bir vasitəyə çevrilmişdi. Ümumiyyətlə 1828-ci ildən sonra Mərkəzi Qafqaz çaylarının suvarma qüvvəsini yoxlamaq məqsədi ilə Qafqaz canişini knyaz Baryatinis-kinin ( 1856-1862) ci il tərəfindən dəvət edilmiş İngilis mühəndisləri Belli və Qabba tərəfindən 1860 -1863-cü illərdə ilk yoxlama işləri aparılmışdı (5).

Lakin Muğan düzünün iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edəcəyini görə bilməyən, kəşfiyyat işlərinin çox xərc tələb etdiyini bilən Rus hökuməti həmin təşəbbüsü dayandırmalı olur. 1896-cı ildə Araz çayının daşması və öz vadisi boyu uzanan Muğan torpaqlarını suvarması hadisəsindən sonra azərbaycanlı və Rusiyadan köçürülmüş kəndlilər əkdikləri torpaqlarda bol məhsul götürməyə nail oldular. Beləliklə bu hadisə

Muğan torpaqlarının suvarma şəraitində böyük mənfəət verə biləcəyini rus mütəxəssislərinə sübut etdi. Ona görə də 1896-cı ildə rus hökuməti tərəfindən yenidən Muğana kəşfiyyat dəstəsi göndərilir. Bu kəşfiyyat işləri 1900-cü illərə qədər davam etdirilir (6).

1901-ci ildən 1913-cü ilə qədər Qolitsin kanalının çəkilməsi işinə çar hökuməti tərəfindən 312 min manat pul xərclənmişdir (7).

Yuxarıda qeyd edilən bu iki kanalın çəkilişi prosesi başa çatdıqdan sonra kanalların əhatə etdiyi ərazilərdə 25 min desyatin torpaq sahələri əldə edildi. Bu kanalların ətrafına Rusiyadan köçürülmüş əhalidən ibarət kəndlər salınmışdır. Ümumiyyətlə 1908 - 1912-ci illər ərzində həmin ərazilərə Rusiyadan 8 .826 ailə, və ya 56 min nəfər rus kəndlisi köçürülmüşdü (8).

Azərbaycan kəndlilərinin öz torpaq sahələrini daima su ilə təmin etmək məqsədi yalnız bir arzu olaraq qalırdı. Kanallar üzərində Çar hökumətinin yerli orqanlarının yerli xan və bəylərin xüsusi mülkiyyət hüququ Azərbaycan kəndlilərinə suvarma mənbələrində istifadə etməyə imkan vermirdi, verə də bilməzdi. Bu çar hökumətinin yerli kəndlilərin sıxışdırılmasın dair müstəmləkə siyasətinin mahiyyətindən irəli gəlirdi. Şimali Azərbaycan əhalisi "İkinci növ insanlar" kimi qələmə verilirdi. Burada məqsəd azərbaycanlıları öz doğma ata-baba torpaqlarından sıxışdırıb çıxartmaq, orada xristian əhalini yerləşdirmək planını davam etdirmək məqsədi güdülürdü. Çar hökuməti bütün sahələrdə olduğu kimi, sudan istifadə sahəsində də bütün feodal və yarım feodal münasibətləri və qaydaları olduğu kimi, saxlamışdı. Çar hökuməti tərəfindən "Sudan istifadə haqqında xüsusi qərar " adlı 1890-cı il 3 dekabrda verilmiş qanuna görə, bütün suvarma işlərinə rəhbərlik etmək üçün Mərkəzi Dövlət orqanı olan su idarəsi yaranmışdı (8). Həmin qanuna görə qubernatorlar tərəfindən namizədliyi irəli sürülən mirablar və cuvarlar kanallar üzərində ağalıq edirdilər. Mirabların vəzifəsi kanallar üzərində nəzarət etməkdən ibarət idi, cuvarların vəzifəsi isə mirabın yaxın köməkçisi olmaqla, xırda kanallar üzərində nəzarət etmək idi. Rusiyanın xristian əhalisi üçün çar hökuməti tərəfindən Şimali Azərbaycanın müxtəlif regionlarında XIX əsrin II yarısından etibarən kilsələrin tikilməsi də müstəmləkəçilik siyasətinin tərkib hissəsi idi. 1855 – ci ildə Qax kəndində müqəddəs Georqiy, 1889 – 1898 - ci illərdə Bakıda Aleksandr Nevski kilsələrinin tikilməsinə çar hökuməti tərəfindən 195 min manat gümüş pul xərclənmişdir. 1908-ci ildə Cavanşir qəzasının Orlovo - Denisovo kəndində yeni kilsə tikilib, başa çatdırılmışdır. Bütün bunlar çar Rusiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasətinin davam etdirilməsinə əyani sübut idi. Bu həm də azərbaycanlıları xristianlaşdırma siyasətinə cəlb etmək üçün vasitə idi.

Rusiya hökuməti Mil düzü ilə yanaşı, Muğan düzünü də, əlverişli zona hesab edirdi. Bu məqsədlə Rusiyanın mərkəzi quberniyalarından gələcəkdə 250 min, 300 min ailənin buraya köçürülməsi, bu məqalədə Yelizavetpol Quberniyasında 540 min 918 desyatin, Bakı quberniyasında 521 min desyatin torpaq ayrılması nəzərdə tutulurdu. Bu yerlərdə Azərbaycan əhalisinin az torpaqlılığı nəzərə alınmırdı.

1901-ci ildə Şimali Muğanda o zaman Petropavlovkada (indiki Sabirabad rayonu) iki kanal "Aşağı Qolitsın" və " Gur – Gur " kanalları çəkilib başa çatdırıldı. 1905-1907-ci illərdə bu kanallar ətrafında Pokrovka, Mixaylovka, Aleksandrovka, Illarionovka adlı rus kəndləri salındı. Yalnız uzunluğu 23 verst olan Qolitsın kanalının çəkilişinə 63 min manat pul xərclənmişdi .

1909-cu il ərzində Şimali Muğanda çəkilmiş bu kanalların ətrafında 11 rus kəndi salınmışdı ki, bu kəndlərdə 841 ailədə 3370 nəfər rus əhalisi yaşayırdı. Çar hökuməti Muğan düzünə yalnız gələcək pambıqçılıq bazası kimi deyil həm də, mühüm hərbi-strateji rayon kimi baxırdı. Çarizm Azərbaycan kəndlilərinin torpaqlarını zəbt etmək hesa-

bına "Köçürmə torpaq fondu yaradır", beləliklə rus kənliləri ilə yerli kəndlilər arasında nifaq salır, hətta bunun üçün gəlmə rus kəndlilərini silahlandırırdı.

Rusiya imperiyasının yeritdiyi müstəmləkə siyasəti Azərbaycan kəndlilərinin çıxışlarına səbəb olurdu. 1912-ci ildə Muğanda bu kanalların ətrafında salınan rus kəndlərinin sayı 60- a çatmışdı. Mil düzündə 18 ədəd qəsəbədə Rusiyadan köçürülmüş 776 nəfər rus əhalisi yerləşdirilmişdir. XX əsrin əvvəllərində Şimali Azərbaycana Rusların köçürülməsi sürətlə artmışdı. Belə ki, XIX əsrin sonlarında Şimali Azərbaycanda rusların sayı 199.236 nəfər olduğu halda, bunların sayı 1916-cı ildə 249.779 nəfərə çatmışdı. Deməli 19 il ərzində Şimali Azərbaycanda rus əhalisinin sayı demək olar ki, 2 dəfə artmışdı.

Ümumiyyətlə, çarizmin müstəmləkə siyasətinin nəticəsində Rusiyadan Şimali Azərbaycana köçürülən rus əhalisinin iqtisadi və hüququ vəziyyəti Azərbaycan kəndlisinin vəziyyətindən köklü surətdə yaxşı idi. Rusiyadan köçürülmüş kəndlilər Azərbaycanda çox varlı yaşadıqları halda yerli kəndlilərin nə torpağı, nə torpağı becərmək üçün işlək heyvanı, belə demək olarsa nə də yeməyə çörəyi yox idi.

Naxçıvan, Lənkəran, Şuşa, Yelizayetapol, Qaryagin, Cavanşir, Göyçay qəzalarında XX əsrin əvvəllərində rus kəndlisinin torpaqlarının miqdarı 8-10 desyatinə Nuxa, Qazax, Zəngəzur, Şamaxı, Quba, Cavad qəzalarında isə hətta 12-20 desyatinə çatdığı halda Azərbaycan kəndlilərinin pay torpaqları yarım və ya bir desyatinə güclə çatırdı. Bütün bunlara baxmayaraq rus kəndlilərinin qərib bir ölkədə yaşamaları, vətən həsrəti onların böyük dərdi idi. 1916-cı ilin axırlarına qədər təkcə Muğan düzündən 3 min dən çox rus kəndlisi öz vətənlərinə qayıtmışdılar. 1917-ci ildə Rus imperiyasının devrilməsindən sonra rus kəndlilərinin hamısı Azərbaycanı tərk etdilər.

Köçürmə siyasətinin mürtəce mahiyyətinə baxmayaraq yerli Azərbaycan kəndliləri təsərrüfat işlərində həmçinin istismarçılara qarşı mübarizədə rus kəndlilərindən təcrübə qazandılar. Köçürmə siyasəti sinfi ziddiyyətlərin daha da kəskinləşməsinə və yerlərdə çarizmin ictimai siyasi mövqeyinin zəifləməsinə səbəb oldu. I Dünya müharibəsi ərəfəsində Şimali Azərbaycana 210 min nəfər Rus əhalisi köçürülmüşdü. Onlardan 110 min nəfəri şəhərlərdə və mərkəzi qəzalarda 100 nəfəri isə kənd yerlərində yerləşmişdi.

Rusiya imperiyasının Şimali Azərbaycanda apardığı kolonlaşma siyasəti 1917-ci ilin fevral ayına qədər, yəni Rusiya İmperiyasının dağılmasına qədər davam etmişdir.

## *ƏDƏBIYYAT:*

1.Оруджев Г.А. К истории образования русских поселений в Азербайджане.- «Известия АН Азербайджана, серия истории философии и права», 1966; Исмаил-заде Д.И. русское крестьянство в Закавказье (30-е годы XIX – начала XX веков). Москва, 1982г.; Вердиева Х. Ю. «Переселенческая политика Российской империи в Северном Азербайджане». Баку. 1999г.
2.Журнал. «Кавказский календарь». 1914 г. № 1, стр. 40, 44, 54. ; Вердиева Х. Ю. «Переселенческая политика Российской империи в Северном Азербайджане». Баку. 1999, с.176
3.Вердиева Х. Ю. «Переселенческая политика Российской империи в Северном Азербайджане». Баку. 1999, с.245, 255-256
4.Журнал «Кавказское хозяйство» . 1911 г. № 5, стр. 13.
5.Журнал «Кавказское хозяйство». 1914 г. № 1, стр. 11, 15.
6.Журнал «Кавказское хозяйство». 1915 г. № 16, стр. 5.
7.Гусейнов Дж. Х. «Из истории национально- освободительного движения в Азербайджане в начале XX в. ( 1900-1907 гг.)» , Ваку-2001. стр. 40-41
8. Оруджев Г.А. К истории образования русских поселений в Азербайджане.- «Известия АН Азербайджана, серия истории философии и права», 1969, №2.

**ХИКМЕТ АХМЕДОВ**
*к.и.н, ст. н. с. НИЦ «Азербайджановедения» исторического факультета БГУ*

## К ВОПРОСУ О РУССКОЙ КОЛОНИЗАЦИИ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ ( КОНЕЦ XIX -НАЧ. XX ВЕКА)

В данной статье автор освещает проблему русской колонизации в стране как составную часть колониальной политики Российской Империи, уделяет особое внимание на экономический аспект данного объекта исследования, освещает русскую колонизацию Мильской и Муганской степей в начале XX века и цели созданий оросительной системы на этих землях, а именно насаждения русского элемента и усиление экономического гнёта азербайджанского крестьянства.

**KHIKMET AKHMEDOV**
*senior researcher and colleague Candidate of history science of Azerbaijan Studies Center BDU*

## THE PROBLEMS RUSSIAN COLONIZATION IN THE NORTH PART OF AZERBAIJAN AT THE END OF XIX AND BEGINNING OF XXCENTURY

According to this article an author covered the problems about Russian colonization to the country as one of the consist part of the colonial policy of Russian Empire. Paying the main attention to the economical aspect during the process of colonization in Azerbaijan territory such as Mil and Mugan steppe. In beginning of the XX century. Colonization such are Mil and Mugan steppe was the Russian's purpose to create irrigation system for increase the Russian influence of Russian elements and strength economy pressure.

*Rəyçilər:t.e.d.H.Y.Verdiyeva, t.e.d.R.C.Süleymanov.*
*BDU-nun Tarix fakültəsi «Azərbaycanşünaslıq» Elmi Tədqiqat Mərkəzinin «Dünya azrbaycanlıları» bölməsinin 14 aprel 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).*